*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    23 iyul 2016-cı il    № 56 (2071)    Qiymәti 25 qəpik

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Hərbi potensialımızın gücləndirilməsi prioritet olaraq qalacaq




*Son illər ərzində Azərbaycanda baş vermiş dəyişikliklərə nəzər yetirsək görərik ki, bu müddət ərzində həyatımızın bütün sahələrində çox böyük nailiyyətlər qazanılıb. Hər şeydən öncə iqtisadiyyatda qazanılmış uğurlar digər sahələrin də inkişafına böyük təsir göstərib. O cümlədən hərbi sahədə atılmış önəmli addımlar nəticəsində ordumuz Cənubi Qafqazın ən güclü müdafiə strukturuna çevrilib, Silahlı Qüvvələrimizin təminat və təchizatında böyük irəliləyiş baş verib.*

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Bakının Xətai rayonunda hərbçilər üçün inşa edilmiş yaşayış binasında yaradılan şəraitlə tanış olarkən söylədiyi fikirlər dövlət başçısının ordu quruculuğuna nə qədər böyük önəm verdiyini bütün dolğunluğu ilə göstərir: "Hərbçilərin xidmət şəraiti də yaxşılaşır. Bu gün Azərbaycanın müxtəlif ərazilərində yerləşən hərbi hissələrdə, hərbi şəhərciklərdə müvafiq göstərişlər əsasında təmir-bərpa işləri aparılır, yeni hərbi bazalar tikilir. Keçən il biz Silahlı Qüvvələr Günü ərəfəsində Hərbi Dəniz Qüvvələrinin Bakıda, Xəzər sahilində tikilmiş bazasının açılışını qeyd etmişdik. Bu baza Xəzərdə ən böyük hərbi obyektlərdən biridir və orada bütün şərait yaradılıbdır. Eyni zamanda bütün digər hərbi hissələrdə təmir-bərpa işləri aparılır və qarşıya vəzifə qoymuşam ki, bir dənə də təmirsiz hərbi hissə olmasın. Hərbçilərin yaşayış və xidmət şəraiti yaxşı olmalıdır. Bu, bir daha onu göstərir ki, Azərbaycanda ordu quruculuğu prosesinə çox böyük diqqət göstərilir, bu da təbiidir. Hər bir ölkə bunu etməlidir, xüsusilə müharibə şəraitində yaşayan bir ölkə".

Azərbaycan Silahlı Qvvələri bu gün ən müasir silah və texnika ilə silahlanıb, yüksək təchizata malikdir, dəmir intizama və möhkəm döyüş hazırlığına nail olmuş qüdrətli güc strukturudur və qarşıya qoyulan istənilən döyüş tapşırığını yüksək peşəkarlıqla yerinə yetirməyə qadirdir.

Bu gün Azərbaycan Ordusunun keçdiyi inkişaf yoluna nəzər saldıqda əldə edilmiş nailiyyətlər hər birimizin qəlbini qürur hissilə doldurur. Silahlı Qüvvələrimiz silah və texnika ilə təchizatına və döyüş hazırlığı sahəsində qazandığı böyük uğurlara görə Cənubi Qafqaz bölgəsinin ən qüdrətli ordusu hesab edilir.

Aprel günlərində Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş Azərbaycan ərazilərindəki təmas xətlərində və Ermənistanla həmsərhəd olan rayonlarımızda düşmənin diversiya qrupları təxribatlar törətdilər. Həmin hadisələrin qarşısını cəsur Azərbaycan döyüşçüləri cəsarət və soyuqqanlılıqla aldılar.

Aprel hadisələri bir daha göstərdi ki, bu gün qüdrətli Azərbaycan dövləti və onun güclü ordusu var. Azərbaycan oğulları düşmənin nəinki rəzil hərəkətlərinin qarşısını amansızlıqla almağa qadirdir, eyni zamanda ermənilərin 20 ildən artıqdır ki, havadarlarının bilavasitə dəstəyilə zəbt etdiyi və bu günə qədər işğal altında saxladığı torpaqları azad etməyə qadirdir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə öz çıxış və nitqlərində vurğulayıb ki, məqsədimiz güclü ordu yaratmaqdır.

Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı ordu quruculuğu və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxundu: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün prioritet məsələdir. Bu məsələnin tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi bizim üçün əsas vəzifədir. Bu münaqişənin həllinin başqa yolları yoxdur. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, status-kvo dəyişdirilməlidir, işğala son qoyulmalıdır".

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Hərbi potensialımızın gücləndirilməsi prioritet olaraq qalacaq



(Əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev bundan sonra da ordumuza diqqət və qayğını əsirgəməyəcəyini xüsusilə vurğuladı: "Hərbi potensialımızın gücləndirilməsi prioritet olaraq qalacaq. Aprel hadisələrindən sonra çox ciddi əlavə tədbirlər görülüb. Bizim döyüş qabiliyyətimiz böyük dərəcədə artıb, daha da artacaq. Biz ən müasir texnika, silah-sursat alırıq. Əlbəttə ki, bu, bizim gücümüzü artırır və danışıqlar prosesində mövqelərimizi gücləndirir. Ona görə artıq uzun illər ərzində apardığımız siyasət öz səmərəliliyini təsdiq etdi. Bundan sonra hərbi potensialımızın gücləndirilməsi, ordu quruculuğu prosesi daha da sürətlə getməlidir. Həm yerli istehsal daha da artmalıdır və artacaq, - bu gün artıq Azərbaycanın çox güclü hərbi sənayesi vardır, - həm də ən qabaqcıl texnologiyaya malik olan silahlar alınır və alınacaq".

Müdafiə Sənayesi Nazirliyinin uğurları da bizi sevindirməyə bilməz. Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan məmulatlar apreldə Malayziyanın Kuala-Lumpur şəhərində keçirilən "DSA-2016" XV Asiya müdafiə xidmətləri sərgisində uğurla nümayiş olunub.

Sərgidə ölkəmizdə istehsal edilən müxtəlif növ atıcı və yaxın məsafəli döyüş vasitələri, artilleriya silahları, zirehli texnikalar, müxtəlif çaplı aviasiya bombaları, pilotsuz uçuş aparatları, atıcı silahlar üçün müxtəlif növ döyüş sursatları, kiçik çaplı avtomatik tapançalar üçün döyüş sursatları, optik cihazlar və s. olmaqla 220 adda müdafiə təyinatlı məmulat nümayiş etdirilib və böyük maraqla qarşılanıb.

Nazirlər Kabinetinin ilin birinci yarısının yekunlarına həsr olunmuş iclasında müdafiə sənayesi naziri Yavər Camalovun bildirdiyinə görə, Azərbaycanın qısa müddət ərzində yaradılmış "Zərbə" pilotsuz uçuş aparatının sınaqları uğurla keçib və yaxın vaxtlarda ordunun sərəncamına gönderiləcək: "Bu aparat düşmənin dayaq məntəqələrini nəzarətdə saxlamaqla yanaşı, onları istənilən ən məhv etmək iqtidarındadır."

Həmçinin yeni "İldırım" və "Qasırğa" zirehli maşınlarının ilkin nümunələrinin hazırlandığını bildirən nazir həmin texnikaların Bakıda keçiriləcək "ADEX-2016" sərgisində nümayiş etdiriləcək və 2017-ci ildən seriya ilə istehsalına başlanılacaq.

Beləliklə, bu gün Azərbaycanın ordu quruculuğu sahəsində əldə etdiyi uğurlar hər bir vətənsevər azərbaycanlının köksünü iftixar hissilə doldurur. Günü-gündən Azərbaycanın və onun Silahlı Qüvvələrinin gücü və qüdrəti artır, möhkəmlənir.

Hazırda Vətən oğulları Silahlı Qüvvələrimizin müxtəlif qoşun növlərində xidmət edərək, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına uyğun hərbi peşəkarlıqlarını artırmaqla, Azərbaycan torpaqlarını işğal etmiş Ermənistan silahlı birləşmələri ilə təmas şəraitində ayıq-sayıq döyüş növbəsi aparırlar. Bir sözlə, müstəqil dövlətimizin və dövlətçiliyimizin keşiyində möhkəm dayanırlar və Ali Baş Komandanın döyüş əmrlərini yerinə yetirməyə hazırdırlar.



**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

__21 iyul 2016-cı il.__

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 8 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə və Noyemberyan rayonunun Berdavan kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

__22 iyul 2016-cı il.__

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 10 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə və Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu, Əlibəyli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi yaxınlığında, həmçinin Göygöl və Goranboy rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Silahlı Qüvvələrimizin nümayəndələri "Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarında iştirak edəcək



***__İyulun 30-dan avqustun 13-dək Rusiya Federasiyasında "Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarının keçirilməsi planlaşdırılır.__***

Yarışlar çərçivəsində təşkil ediləcək "Xəzər Kuboku - 2016" və "Tank biatlonu - 2016" müsabiqələrində Silahlı Qüvvələrimizin nümayəndələrinin iştirakı nəzərdə tutulub.

Mahaçqala limanı yaxınlığında keçiriləcək "Xəzər Kuboku - 2016" beynəlxalq yarışında ölkəmizi təmsil edəcək Hərbi Dəniz Qüvvələrinin 2 gözətçi və 1 xilasedici yedək gəmisinin, eləcə də onların ekipajlarının iyulun 21-də təntənəli yola salınması mərasimi keçirilib.

"Xəzər Dənizi - 2016" yarışlarında iştirakla yanaşı, hərbi dənizçilərimiz Mahaçqala şəhərində olduqları müddətdə digər ölkələrin gəmi ekipajları ilə qarşılıqlı görüşlər, ziyafətlər, mədəni-kütləvi və digər tədbirlər keçirəcəklər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 21-də Tərtər şəhərinin qərbindən keçən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində növbəti monitorinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan Silahlı Qüvvələrinin nəzarət etdiyi ərazidə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Piter Svedberq keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Saymon Tiller keçiriblər.

# Artilleriyaçılarımız bilik və bacarıqlarını nümayiş etdirdilər

Yüksək döyüş hazırlığına nail olduqda hərbi əməliyyatların taleyini həll etmək mümkündür. Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları döyüş hazırlığı məşğələ və təlimlərində lazımi peşəkarlığa nail olublar. Çünki keçirilən təlimlərdə artilleriyaçılarımız bütün döyüş tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirirlər. İstər reaktiv sistemlərin, istərsə də müxtəlif artilleriya qurğuları və toplarının heyətləri yüksək döyüş qabiliyyətinə malik olduqlarını keçirilən Əlahiddə Ümumqoşun Ordunun döyüş atışlı taktiki təlimində bir daha sübut etdilər. Müasir silah və texnikaya malik, yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı digər birləşmə və hissələrlə qarşılıqlı əlaqədə artilleriyaçılarımız öz bilik və bacarıqlarını nümayiş etdirdilər.



Təlimlərdə yaxşı nəticə göstərmiş artilleriyaçılarımızla həmsöhbət olmaq məqsədi ilə hərbi hissələrimizdən birinə yollandım.

Əvvəlcə onu qeyd edim ki, hərbi hissədə şəxsi heyətin nümunəvi xidməti üçün hərtərəfli şərait yaradılıb. Burada görülmüş abadlıq-quruculuq işləri onu deməyə əsas verir ki, ölkəmizdə ordu quruculuğuna göstərilən qayğı əsgərlərimizin daha yaxşı xidmət aparmaları üçün yaradılan hərtərəfli şəraitdən bəllidir. Hərbi hissədə müasir standartlar səviyyəsində milli



memarlıq üslubunda tikilən əsgər yataqxanalarında istirahət və yataq, məişət, zabitlər üçün iş otaqları, ideoloji kabinetlər mövcuddur.

Əvvəlcə ideoloji otaqda keçirilən dərsdə iştirak etdim. Əsgərlərin mənəvi-psixoloji hazırlığında mühüm rol oynayan dərslərdə şəxsi heyətə xalqımızın qəhrəmanlıq tarixi, hərb ənənələri, Vətənimizin qəhrəman övladları, ordumuzun gücü haqqında ətraflı məlumat verilir. Bu dərslərdə iştirak edən əsgərlər əcdadlarımızın şanlı hərb ənənələrini şərəflə davam etdirərək canla-başla xidmət edirlər. Aparılan ideoloji işin nəticəsidir ki, işğalçı erməni ordusunda hər gün baş verən neqativ hallara Silahlı Qüvvələrimizdə rast gəlinmir. Çünki erməni əsgərindən fərqli olaraq Azərbaycan əsgəri hansı amal uğrunda döyüşə hazır olduğunu yaxşı dərk edir, komandir və rəislərindən öyrəndiyi bilik və təcrübə ilə bacarıqlı döyüşçü kimi yetişir.

İdeoloji otaqda keçirilən ictimai-siyasi hazırlıq dərsi başa çatdıqdan sonra zabit Nicat Hüseynovla həmsöhbət oldum. Müsahibim bildirdi ki, 2007-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Hərbi liseyi bitirdikdən sonra 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul edilib.

- Məqsədim tabeliyimdəki əsgərləri peşəkar döyüşçü kimi yetişdirmək, ən böyük arzum isə işğal altındakı torpaqlarımızın düşməndən tez bir zamanda azad edilməsidir, - deyən zabit Nicat Hüseynov nümunəvi xidməti ilə seçilən əsgərlərdən bir neçəsinin adını da çəkdi. - Əsgərlərdən Cəlal Sərxanov, Sakit Məhərrəmov, İsa İsmayılov, İslam Novruzov, Məhəmmədəli Əliyev və adlarını çəkmədiyim əsgərlərimizi bir amal birləşdirir ki, o da Vətənə ləyaqətlə xidmət etməkdir.

Bir məqamı da qeyd edim ki, nümunəvi xidmətlərinə, təşkilatçılıq bacarıqlarına görə çavuş hazırlığı kurslarına cəlb edilərək kiçik çavuş rütbəsi almış Orman Abdinov, Rza Balakişiyev, Qasım Rəsulov, Cavid Ramazanlı komandirlərinin ən yaxın köməkçiləri hesab edilirlər. Fiziki, mənəvi-psixoloji və döyüş hazırlığında fərqlənən bu gənclər hər zaman nümunəvi xidmətləri ilə diqqəti cəlb edirlər.

Zabitlərdən Anar Nəbiyev və Nemət Hüseynovla da həmsöhbət oldum. Müsahiblərimin hər ikisi keçirilən dərs, məşğələ və təlimləri diqqətə çatdıraraq bildirdilər ki, Əlahiddə Ümumqoşun Ordunun döyüş atışlı taktiki təlimində şəxsi heyət verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirməyi bacarıb. Təlimdə fərqlənərək mükafatlandırılanlar içərisində artilleriyaçıların da olması aparılmış məqsədyönlü işlərdən xəbər



verir. Belə ki, təlim zamanı zabitlərdən Mahir Fərzəliyev və Mübariz Adıgözəlov tabeliklərindəki şəxsi heyətlə birlikdə hədəfləri dəqiq və sərrast atəşlə məhv etməyi bacarıblar.

Təlimin qəhrəmanlarından Mahir Fərzəliyev söhbətə belə başladı: "Məqsədimiz verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirmək, hədəfləri ilk atəşlə məhv etməkdir. Bunun üçün də keçirilən dərs, məşğələ və təlimlərdə şəxsi heyəti peşəkar döyüşçü kimi yetişdirməyə çalışırıq. Keçirilən təlimlərin nəticəsi göstərir ki, gələcəkdə real döyüşlər olarsa, döyüş meydanından qaçacaq yeganə əsgər düşmən əsgəri olacaq. Buna aprel döyüşləri zamanı hamımız əmin olduq.

Şəxsi heyətimizin döyüş qabiliyyətinə gəldikdə isə biz düşməni darmadağın etməyə hər an hazırıq. Əlahiddə Ümumqoşun Ordunun döyüş atışlı taktiki təlimində çavuş Orxan Niftəliyev, kiçik çavuş Yasin Məmmədov, əsgər İntiqam Həsənov və başqaları üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyi bacardılar."

Hərbi hissədə olan zaman şəxsi heyətə keçirilən təlimlərin videogörüntüləri nümayiş olunurdu. Bir məqamı da qeyd edim ki, əsgərlərin istirahət vaxtlarının səmərəli təşkili məqsədi ilə vətənpərvərlik mövzusunda filmlər, videoçarxlar göstərilir. Təbii ki, bütün bunlar da şəxsi heyətdə ruh yüksəkliyinə səbəb olur.

Artilleriyaçılarımızın nümunəvi xidməti üçün dövlətimiz tərəfindən yaradılan şəraitdən, şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığından nə qədər danışsaq, yenə də azdır. Çünki Azərbaycan Silahlı Qüvvələrinin gücü, şəxsi heyətinin döyüş qabiliyyəti keçirilən təlimlərdən, aprel döyüşlərindən bəllidir.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Aydın ORUCOVUNDUR**

---

***<u>Bəzi kütləvi informasiya vasitələrində guya Azərbaycan ərazisində Türkiyə Silahlı Qüvvələrinin hərbi bazasının yaradılması barədə yayılan məlumatlara aydınlıq gətirən Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov deyib:</u>***

## "Azərbaycan ərazisində hər hansı ölkənin hərbi bazasının yaradılması barədə məlumatlar həqiqətə uyğun deyil"

"Azərbaycan ərazisində hər hansı bir ölkənin hərbi bazasının yaradılması barədə mətbuatda yayılan məlumatların heç bir əsası yoxdur və bu, həqiqətə uyğun deyil.

Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki aerodromdan hələ 1999-cu ildən beynəlxalq sülhməramlı missiyada iştirak edən hərbi qulluqçularımızın Kosovo, İraq və Əfqanıstana yola salınması üçün istifadə edilir. Burada yerləşən bir terminalda təyyarələrə texniki xidmət göstərən personal və pilotlar üçün istirahət otaqları nəzərdə tutulub.

Qeyd edim ki, Azərbaycan sülhməramlılarının Əfqanıstana aparılması və oradan gətirilməsi Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus nəqliyyat təyyarələri ilə həyata keçirilir. Təyyarə aerodroma enməzdən 1 saat əvvəl Türkiyə hərbi attaşeliyi aparatının nümayəndəsi tərəfindən buradakı 2 otaq açılır. Təyyarə aerodromda olarkən ona texniki qulluq göstərilməsi, yanacaqla təchiz olunması və digər prosedurlar icra edilən zaman pilotların qısamüddətli istirahəti bu otaqlarda təmin edilir. Təyyarə yola düşdükdən sonra isə otaqlar bağlanır, Azərbaycan tərəfinə təhvil verilir, mühafizəyə götürülür və Türkiyə hərbi attaşeliyi aparatının nümayəndələri ərazini tərk edirlər.

Təsdiq edilmiş protokola əsasən, hələ keçən əsrin 90-cı illərindən ölkəmizdə fəaliyyət göstərən və "Qızıl Şərq" hərbi şəhərciyi ərazisində yerləşən bina Türkiyənin ölkəmizdəki hərbi attaşelik aparatına icarə qismində müvəqqəti istifadəyə verilib. Bu protokol həmin tikilidə icarəçi tərəfindən təmir-bərpa işlərinin aparılması üçün hüquqi imkan yaradır".

**AZƏRTAC**

AZƏRBAYCAN ORDUSU

# Oğullar əsgər gedir





***Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, vətəndaşların həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması davam edir.***

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon idarələri qarşısında təntənəli mərasimlər təşkil edilir və hərbi xidmətə gedənlər bayram ovqatı ilə yola salınırlar. Bu tədbirlərdə İkinci Dünya müharibəsi veteranları, rayon ağsaqqalları və Qarabağ müharibəsi əlilləri, ictimai təşkilatların nümayəndələri, yerli icra nümayəndələri, bələdiyyə sədrləri, çağırışçı gənclər və rayon ictimaiyyətinin nümayəndələri iştirak edirlər.

Belə maraqlı tədbirlərdən biri iyulun 18-də Səbail rayonunda keçirildi. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail rayon idarəsinin və Hərbi Dəniz Qüvvələri komandanlığının birgə təşkil etdiyi mərasimdə bir qrup gənc çağırışçı həqiqi hərbi xidmətə yola salındı. Tədbirə rayon ictimaiyyətinin nümayəndələri - Milli Məclisin deputatı, Milli Məclisin elm və təhsil komitəsinin sədri Şəmsəddin Hacıyev, Səbail rayon İcra Hakimiyyətinin nümayəndələri, ağsaqqallar, müharibə veteranları, məktəblilər və Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti qatılmışdı.

Yaşı çatanda hər kəs ordu sıralarına yollanıb Vətənin keşiyində dayanmalı, anasını qoruduğu kimi, qoynunda böyüdüyü torpağı müdafiə etməlidir. Həm də orduda xidmət gənclərdə məsuliyyət, intizam, dözüm, mərdlik kimi keyfiyyətlər aşılayır. Əbəs yerə Silahlı Qüvvələri həyat məktəbi adlandırmırlar ki!

Dünənə kimi uşaq hesab etdikləri oğullar hərbi xidmətə qədəm qoyduqları ilk günlərdən dəyişməyə başlayırlar. Və bu dəyişiklik təkcə onların geyimlərini əhatə etmir. Ordu sıralarında əsgərlərin yaşam tərzi başqalaşır. Ana qayğısından çıxmış gənclər hərbi hissədə sərbəstliyə, müstəqilliyə qədəm qoyur, hərbi məsuliyyətin nə demək olduğunu anlayır. Bu gün ordu sıralarına yola salınan gənclər də, inanırıq ki, bu həyat məktəbini şərəflə keçəcəklər.

Deputat Şəmsəddin Hacıyev çıxış üçün söz alaraq gənc çağırışçılara Vətənimizin müdafiəsi naminə uğurlar dilədi. Səbail rayonu İcra Hakimiyyətinin, 51 saylı orta məktəbin nümayəndələri, müharibə veteranları, valideynlər çıxış edərək hərbi xidmətə yola salınan gənclərə ürək sözlərini ünvanladılar və onlara xeyir-dualarını verdilər.

Mərasim iştirakçıları tərəfindən qeyd edildi ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan və Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilən ordu quruculuğu sayəsində ölkəmizdə güclü, müasir hərbi texnika və silahla təchiz edilmiş Silahlı Qüvvələr vardır və Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudur.



Azərbaycan Silahlı Qüvvələrində xidmət edən hərbi qulluqçular, əsgər və zabitlər dövlət tərəfindən hər cür qayğı ilə əhatə edilib.

Ordumuzun bölmələrinin aprel döyüşləri zamanı düşmən üzərində qazandığı qələbələrdən də söhbət açıldı və bildirildi ki, ən müasir silah və texnika ilə silahlanmış Silahlı Qüvvələrimiz doğma Qarabağımızı və ətrafındakı rayonlarımızı Ali Baş Komandanın əmrilə azad edəcək, Azərbaycanın üçrəngli bayrağı Şuşada, Xankəndində və işğal olunmuş digər rayonlarımızda əzəmətlə dalğalanacaq.

Tədbirdə çıxış edən gənc çağırışçılar adından danışdı və Vətənə ləyaqətlə xidmət edəcəklərini, sərhədlərimizi göz bəbəyi kimi qoruyacaqlarını, işğal altındakı Azərbaycan torpaqlarının azad edilməsi üçün hərbi peşəni səylə öyrənəcəklərini, intizamlı olacaqlarını, komandirlərinin əmr və tapşırıqlarını can-başla yerinə yetirəcəklərini söylədi.

Tədbirin sonunda hər bir gənc çağırışçıya Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail rayon idarəsi tərəfindən hədiyyə təqdim edildi və gələcəyin əsgərləri Dövlət Bayrağını öpərək hərbi hissələrə yola salındılar.

**"Azərbaycan Ordusu"**

## "Azərbaycan hər zaman olduğu kimi, 15 iyul hadisələri zamanı da Türkiyənin yanında oldu"

Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqun iyulun 15-də ölkəsində baş vermiş dövlət çevrilişinə cəhdlə bağlı mətbuat konfransı keçirib.

Səfir deyib ki, dövlət çevrilişinə cəhd edən terrorçular Türkiyə xalqının sərt müqaviməti ilə üzləşdi.

Xalq meydanlara axışaraq mövqeyini nümayiş etdirdi, siyasi partiyalar da dövlətin yanında oldu. Beləliklə, Türkiyədə demokratiya qələbə qazandı.

Diplomat Azərbaycanın hər zaman olduğu kimi, 15 iyul hadisələri zamanı da Türkiyənin yanında olduğunu vurğulayıb və buna görə xalqımıza, xüsusilə Prezident İlham Əliyevə təşəkkür edib. "15 iyul gecəsindən bəri göstərdikləri həmrəylik üçün bütün azərbaycanlı qardaşlarımıza minnətdarlığımı bildirirəm", - deyə səfir vurğulayıb.

İsmayıl Alper Coşqun təəssüflə qeyd edib ki, bəzi ölkələrdə Türkiyədəki hadisələrlə bağlı dezinformasiya hallarına da rast gəlinib. O bildirib ki, Türkiyə 80 milyon vətəndaşı, qanuni dövlət qurumları ilə dimdik ayaqdadır. Heç kimin bununla bağlı tərəddüdü olmasın. Bu hadisələrdən sonra Türkiyənin zəifləyə biləcəyini fikirləşən düşmənlərimiz yanılırlar.

Səfir çevriliş cəhdinin Türkiyə Silahlı Qüvvələrinin əmr-komandanlıq sistemi daxilində baş vermədiyini vurğulayıb. O deyib ki, bu, ordu tərkibindəki kiçik qrupun təşəbbüsü olub və onlar qanuna müvafiq şəkildə cəzalandırılacaqlar. Türkiyənin terrorla mübarizədə böyük təcrübəyə malik olduğunu vurğulayan diplomat həmin terror qruplarından birinin də Fətullahçı Terror Təşkilatı - FETÖ olduğunu bildirib: "15 iyul çevriliş cəhdi bu terror təşkilatının indiyə qədər bildiyimiz terror fəaliyyətinin zirvəsini təşkil edir. Hazırda onların təmizlənməsi davam etdirilir. Bu qruplaşmanın təkcə Türkiyə daxilində deyil, həm də ölkə xaricindəki strukturlarına qarşı mübarizəmizi davam etdiririk".

Diqqətə çatdırılıb ki, hadisə nəticəsində 240-dan çox insan şəhid olub, 1500-dən çox yaralı var, 104 qiyamçı öldürülüb. Dövlət qurumlarından 60 min nəfər işdən çıxarılıb, 6823 şəxs saxlanılıb, onlardan 1400-ü həbs edilib. Bütün araşdırmalar hüquq müstəvisində aparılır.

Qeyd edilib ki, iyulun 20-də Türkiyə Nazirlər Kabinetinin toplantısından sonra ölkədə 3 ay fövqəladə vəziyyət elan edilməsi barədə qərar qəbul olunub. Türkiyə Böyük Millət Məclisi təsdiqləyəcəyi təqdirdə 3 aylıq fövqəladə vəziyyət elan edilməsi barədə qərar iyulun 21-də axşam qüvvəyə minəcək. Fövqəladə vəziyyət vətəndaşların hüquq və azadlıqlarını məhdudlaşdırmaq üçün deyil, onları qorumaq üçün elan edilib. Məqsəd Silahlı Qüvvələrdəki bütün virusları təmizləməkdir. Fövqəladə vəziyyətin tətbiqi dövlət mexanizminin nizamlanmasının sürətləndirilməsinə və konstitusion nizamın qorunmasına, eyni zamanda, terror təşkilatının ünsürlərinin aradan qaldırılmasına yönəlib.

**AZƏRTAC**

## Ukrayna Qeyri-Hökumət Təşkilatları Assosiasiyası Yerevanda faşist generalına heykəl ucaldılmasını pisləyən bəyanat yayıb

Ukrayna Qeyri-Hökumət Təşkilatları Assosiasiyası faşist generalı Njde kimi tanınan Qaregin Ter Arutunyana Ermənistanın paytaxtı Yerevan şəhərində heykəl ucaldılması ilə bağlı etiraz bəyanatı yayıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda Qaregin Njdenin faşist ordusu sıralarında fəaliyyəti barədə məlumat verilib və Ermənistan parlamentinin sədr müavini Eduard Şarmazanov Njdeni Ermənistanın müstəqilliyi yolunda mübarizə aparan milli qəhrəman və vətənpərvər şəxs kimi təqdim edib.

"Nasist ideologiyasını və Holokos faciəsini araşdıran professor Efraim Zurov "The Jerusalem Post" qəzetində Njdenin həqiqətən nasistlərlə əməkdaşlıq etdiyini, Krımda və Qafqazda erməni legionunun komandirlərindən biri olduğunu qeyd edib. O bildirib ki, nasistlərlə birgə II Dünya müharibəsinin gedişində kütləvi qırğınlarda iştirak edən Njdeyə heykəl qoyulmasını qınamalı, nasistlərlə əlbir olan və 3-cü reyxə kömək edənlərə qarşı çıxış etməliyik. Yerevanda Njdenin adını daşıyan prospekt, meydan, metro stansiyası və həmçinin Sunik rayonunda bir kənd mövcuddur. Bu da nasistlərə qarşı mübarizə aparan və həlak olan müharibə iştirakçılarının xatirəsinə təhqirdir", - deyə bəyanatda bildirilir.

Bəyanatda Ukrayna Qeyri-Hökumət Təşkilatları Assosiasiyası nasist ideologiyasının təmsilçisi olan Njdenin erməni xalqının qəhrəmanı kimi təbliğ edilməsini pisləyib, eləcə də Ukrayna ictimaiyyətini bu məsələyə münasibət bildirməyə çağırıb.



# Həm müalicə, həm də istirahət

*Xəzər dənizinin sahilində yerləşən Mərkəzi Hərbi Sanatoriyanın rəisi tibb xidməti polkovnik-leytenantı Vidadi Əliyevlə kəlmələşdik. Öyrəndim ki, Almaniyanın Naturopatiya Akademiyasının homeopatiya kafedrasının fəxri professorudur. Dünyanın bir çox ölkələrində (ABŞ-da, Yaponiyada, Rusiya Federasiyasında, Almaniyada və s.) tibbi kurs keçən həkim rus dilli ölkələr üzrə beynəlxalq lektordur. 2007-ci ildə onurğa xəstəlikləri, "Fəqərələrarası disk yırtıqlarının cərrahi müdaxiləsiz müalicəsi" mövzusunda olan müdafiəsi dünyada birinci yerə layiq görülüb və MDB məkanında Almaniyanın "Hanemann" medalına layiq görülən həkimlərdəndir.*

- Mərkəzi Hərbi Sanatoriya 2015-ci ilin əvvəllərindən fəaliyyətə başlayıb, - deyir Vidadi həkim. - Əvvəllər isə Görədil Hərbi İstirahət Evi kimi tanınırdı. Burada hərbi qulluqçulara, onların ailə üzvlərinə, istefada və ehtiyatda olan hərbçilərə, mülki şəxslərin istirahəti təmin edilməklə bərabər onlara tibbi qulluq da göstərilir.

Hər bir kəs sanatoriyada dincəlməklə bərabər müalicə də oluna bilər. Burada pediatr, terapevt, nevropatoloq, dietoloq, stomatoloq, androloq və s. ixtisaslar üzrə həkimlər fəaliyyət göstərir. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin yüksək diqqəti sayəsində ordumuzun sürətli inkişafı və qazandığı nailiyyətlər hərbi tibb sahəsinin də inkişafını təmin edib. Müasir avadanlıqlar, diaqnostik aparatlar hərtərəfli müayinələrin aparılmasına və müalicəsinə imkan verir. Yeri gəlmişkən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun da bizə olan qayğısını qeyd etmək istərdim.

Sanatoriyanın "www.Herbi-sanatoriya.az" saytı fəaliyyət göstərir. Buradan ətraflı məlumat əldə edib "Online" sifariş vermək də mümkündür.

Hippokrat deyirdi ki, müalicə etdiyin insan sənin gözünün qarşısında deyilsə, bu müalicə deyil, - tibb xidməti polkovnik-leytenantı Vidadi Əliyev söhbətinə davam edir. - Sanatoriyamızda müayinə və müalicələr üçün hərtərəfli şərait mövcuddur. Müalicə olunan xəstə ilk növbədə həkiminə inanmalıdır. Ümumiyyətlə, həkim-xəstə münasibətlərində üç tərəf vardır: həkim, xəstə, xəstəlik. Əgər bu mübarizədə həkimlə xəstə bir olarsa, xəstəliyə qalib gələr. Xəstə həkimi yaxına buraxmayıb xəstəliyə tabe olarsa, onda xəstəlik qalib gələ bilər. Biz həkimlər isə daim xəstələrimizin yanında olub, gözlərində yaşam sevgisini və ümidini yaratmağa çalışırıq.



Sanatoriya rəisinin tibb hissəsi üzrə müavini - tibb hissə rəisi tibb xidməti baş leytenantı İlqar Əkbərovun müşayiəti ilə buradakı şəraitlə yaxından tanış oluruq.

Mərkəzə gələnləri ilk növbədə məlumat guşəsinin gülərüz qızları Ramilə Hüseynova və Nübar Məmmədli qarşılayır. Qəbul bölməsinin rəisi Şəlalə Əzimovanın da istirahətə gələnlərə mehriban rəftarı diqqətimdən yayınmadı.

Məşhur Hollandiya həkiminin belə bir fikri var: "Başqalarına işıq verə-verə özüm də yanaram." Həkim yanmağı bacarmalıdır. Biz də burada xəstələrinin sağlamlığı üçün səylərini əsirgəməyən həkimlərlə tanış oluruq.

Firəngiz Məmmədova həkim-terapevtdir. Onunla görüşəndə xəstə Nailə Məmmədova uğurlu müalicəyə görə həkimə minnətdarlığını bildirirdi.

Fizio-terapevt həkim Ramin Quliyev dedi ki, həkim öz üzərində daim çalışmalı, müasir tibbin yeniliklərini tətbiq etməlidir. O, bizimlə söhbətində "Bud, çanaq və diz oynağının passiv gimnastika aparatı ARTROMOT-K1" və "Çiyin, dirsək oynağının passiv gimnastika aparatı RT-ROMOT-S3" haqqında danışaraq xəstələrin müalicəsində onların tətbiqindən müsbət nəticələr əldə etdiklərini qeyd etdi.

Sağlam bədən sağlam düşüncənin məhsuludur. Psixoterapevt həkim Tərlan İbrahimov daha çox yuxusuzluq sindromu və stress yaşayanların müraciətindən, müalicələrin müsbət nəticəsindən söz açıb dəniz kənarında istirahətin insana xoş əhval-ruhiyyə aşıladığını söylədi.

- Sağlam insan sağlam cəmiyyətin yaradıcısıdır, - dedi manual-terapevt Orxan Eyyublu. - Onurğa xəstəlikləri müalicəsi (fəqərəarası disk yırtığı, skolioz, kifoz) üçün hər bir şəraitin və sadəcə maral qanı ilə vanna prosedurları daim fayda verir.

Həkim stomatoloq Mais Nuriyevdən öyrəndik ki, müraciət edənlər buradakı ən son aparatlardan razılıq edirlər.



Müalicə bölməsindəki kompüter diaqnostika aparatı vasitəsilə qurdların, mikrobların, orqanizmdə gedən prosesləri tez bir zamanda öyrənmək mümkündür. Multiresonans-terapiya aparatı vasitəsilə mikroblar və patalogiyalar müalicə edilir.

İstirahətin mənalı keçməsinin sirri onun düzgün təşkilidir, - deyir aktiv istirahətin təşkili bölməsinin müdiri Şükran Həşimov. - Asudə vaxtı açıq havada, yeni parkda, meşədə keçirdikdə, idmanla məşğul olduqda qüvvə bərpa olunur, orqanizmin yorğunluğa qarşı müqaviməti artır. Vacibi odur ki, hər kəs özünə xoş gələn və onun fiziki imkanlarına cavab verən idman növü ilə məşğul olsun. Bunun üçün isə bizim hər şəraitimiz var.

İtirilmiş enerji vulkan palçığından olan vannalarda və digər bu tipli müalicələrlə daha tez bərpa olunur. Bu tip palçıq vannalar mədə-bağırsaq və hərəkət dayaq sisteminə müsbət təsir göstərir, dərini gözəlləşdirir, əsəb gərginliyini götürür. Relaks masaj isə bütün yorğunluğu aradan qaldırır.

Mərkəzi Hərbi Sanatoriyanın yataq korpusları yenicə təmirdən çıxıb. Muasir tələblərə cavab verir. Burada trinajor, bilyard zalı, tennis kortu, futbol və voleybol meydançası, sauna, uşaq və böyüklər üçün hovuz və uşaq bağçası fəaliyyət göstərir.

Nahar yeməyi zamanı yeməkxanada olduq. Ərzaq və əşya xidməti rəisi Namidə Quliyeva ərzaqların keyfiyyətli olduğunu, yeməkxana rəisi Xəyalə Orucova da hər gün təzə tərəvəzlər alındığını bildirdi.

Zabitlərdən Rasim Qarayev, Cavid Nəbiyev, mülki vətəndaş Anar Abdullayev onların istirahəti üçün yaradılan şəraitə görə ölkə başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlıqlarını bildirdilər.



Silahlı Qüvvələrin Mərkəzi Hərbi Sanatoriyasından məzuniyyətimi ailəmlə birlikdə burada keçirmək fikri ilə ayrıldım...



**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Milli mətbuatımızın 141 yaşı tamam oldu

*Həsən bəy Zərdabinin yaratdığı və redaktoru olduğu "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan jurnalistikası müxtəlif dövrlərdə ağır sınaqlara məruz qaldı, amma milli dilin yaşaması naminə hər çətinliyə dözdü və tutduğu şərəfli yoldan dönmədi.*

"Heç olmaz ki, doğru söz yerdə qalsın" deyən Həsən bəy Zərdabi el-obanın zülmət içində boğulduğu bir vaxtda ona əl uzatmaq, onun yolunu elm, maarif çırağı ilə işıqlandırmaq, doğru yol göstərmək üçün "Əkinçi"ni yaratdı. "Əkinçi" Azərbaycan dilində əsl milli demokratik və xalq mətbuatının ilk təməl daşını qoydu. 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 nömrəsi çıxan "Əkinçi" millətin aynası oldu, Azərbaycan jurnalistikasının bayraqdarına çevrildi.

Sonrakı illərdə görkəmli ziyalılar tərəfindən nəşr edilən "Ziya", "Kəşkül", "Şərqi-rus", "İrşad", "Molla Nəsrəddin" kimi qəzet və jurnallar "Əkinçi"nin ənənələrini davam etdirdi.

Ötən dövrdə zəngin və şərəfli yol keçən Azərbaycan mətbuatı indi özünün yüksəliş mərhələsini yaşayır. Bu yeni inkişaf dövrünün təməlini qoyan ulu öndər Heydər Əliyev hər zaman mətbuatın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirib, mətbuat və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Müstəqillik dövründə Azərbaycan mətbuatı ilə bağlı ilk fərman da Heydər Əliyev tərəfindən imzalanıb. 2000-ci il martın 27-də imzalanan "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi" haqqında fərmanla ölkəmizdə demokratik mətbuatın yaradılmasının 125 illiyi təntənəli şəkildə qeyd olunub. Ümumilikdə ulu öndər mətbuatın problemlərinin həlli ilə bağlı ondan çox sərəncam və fərman imzalayıb.

1999-cu ildə "Kütləvi İnformasiya Vasitələri haqqında" beynəlxalq tələblərə cavab verən Qanun qəbul edilib. Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli sərəncamı ilə Azərbaycanda senzura ləğv olunub. 2001-ci il dekabrın 18-də ölkənin əsas kütləvi informasiya vasitələri və jurnalist təşkilatlarının rəhbərləri ilə görüşən ulu öndər mətbuatın problemlərini müzakirə edib. Həmin görüşdən sonra bəzi problemlər operativ həllini tapdı, qəzetlər əlavə dəyər və mənfəət vergisindən azad edildi, onlara kreditlər ayrıldı. Ümummilli liderin mətbuata bu cür dost münasibəti jurnalistlər tərəfindən də yüksək dəyərləndirildi. Heydər Əliyev 2002-ci il martın 22-də "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.

Bu gün müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilir.




Azərbaycanın artan iqtisadi imkanları mətbuatın inkişafı yolundakı çətinliklərin aradan qaldırılmasına, onun aktual problemlərinin həllinə şərait yaradır. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi, 2009-cu il aprelin 3-də Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun yaradılması azad medianı inkişaf etdirmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalistlərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə atılan mühüm addımlardandır. Milli mətbuatımızın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-lərə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da mətbuata və bu sahədə çalışanlara göstərilən qayğının tərkib hissəsidir.

Ulu öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev hər beş ildən bir milli mətbuatımızın yubileyinin təntənə ilə keçirilməsini ənənəyə çevirib. Dövlətimizin başçısı milli mətbuatın yubileyi ilə bağlı ilk sərəncamı 2005-ci il iyunun 20-də imzaladı, mətbuatımızın 130 illik yubileyi bütün ölkə miqyasında qeyd olundu, çoxlu sayda KİV əməkdaşı orden və medallarla təltif edildi, fəxri adlara, Prezident təqaüdünə layiq görüldü.

Milli mətbuatımızın 135 illiyi də böyük təntənə ilə qeyd edilib. Bu dəfə də mətbuat nümayəndələri fəxri adlara və mükafatlara layiq görülüblər, kütləvi informasiya vasitələrinə maddi yardım ayrılıb. Mətbuat Şurası üçün yeni binanın ayrılması, onun müasir avadanlıqla təmin edilməsi, Prezident İlham Əliyevin binanın açılışında iştirakı, jurnalistlər qarşısında çıxışı bir daha bu həqiqəti təsdiq etdi ki, azad mətbuatın inkişafı dövlət siyasətində prioritetdir.

Prezident İlham Əliyevin Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında sərəncamı isə jurnalistlərə yeni əhval-ruhiyyə gətirdi, böyük rəğbətlə qarşılandı. Mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi məqsədilə 2010-cu il Prezidentin Ehtiyat Fondundan Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsaitin ayrılması mətbuat tariximizdə mühüm hadisə kimi dəyərləndirildi. Təsadüfi deyil ki, 2010-cu il dekabrın 1-dən 20-dək "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi 2010-cu ildə "Jurnalistlərin dostu" mükafatı qalibinin müəyyənləşdirilməsi ilə bağlı KİV və jurnalist təşkilatları arasında keçirdiyi sorğunun nəticələrinə əsasən, Prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi sahəsindəki xidmətlərinə görə "Jurnalistlərin dostu" mükafatına layiq görülüb.

2013-cü il iyulun 22-də dövlətimizin başçısı jurnalistlər üçün tikilmiş binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak edib. Həmin gün Prezident İlham Əliyev hazırda jurnalistlər üçün inşa edilən növbəti binanın təməlqoyma mərasimində iştirak edib. Bütün bunların nəticəsidir ki, dövlətimizin başçısı həmin il noyabrın 24-də ikinci dəfə "Jurnalistlərin dostu" seçilib.

Ötən il mayın 2-də Azərbaycan Prezidenti İlham Əliyev milli mətbuatın 140 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Bakıda və respublikamızın bölgələrində milli mətbuatın yaranmasının 140 illiyi ilə əlaqədar çoxsaylı tədbirlər keçirilib.

Bu il iyulun 21-də isə dövlətimizin başçısı Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat ayrılıb. Prezident İlham Əliyevin həmin gün imzaladığı digər sərəncama əsasən isə Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna üç milyon manat ayrılıb.

Bütün bunlar göstərir ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafı, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması hər zaman dövlətimizin başçısının diqqət mərkəzindədir.

Mətbuat günü təkcə jurnalistlərin yox, bütövlükdə cəmiyyətimizin bayramıdır. Çünki azad söz azad cəmiyyətin təməl daşıdır.

**AZƏRTAC**

## Düşüncələr



# Dağlar çağırır məni

*Ürəyim ilahi səsə həmişə açıq olub. Sərin-sərin əsən mehin pıçıltısı da ilahi səsdi, çeşmələrin şırıltısı da, bulaqların axışı da, şimşəklərin çaxışı da, göy üzünün göz yaşı da, dağların əsrarəngiz sükutu da...*

Nə vaxtdı güzarım dağlara düşmür. Nə vaxtdı ürəyim məni dağlara çəkməkdədi. Dağlar çağırır məni. Gedəcəm. Əllərim qayalarda mamır oxşayacaq, dağların daş əlləri əllərimdən yapışıb məni zirvəyə çəkəcək, ilahi qürurunu, ilahi əzəmətini ürəyimə təpər, dizlərimə taqət, gözlərimə nur biləcəm. Bu dağların da zirvəsindən üzü o yana baxacam. Alagöllərdən, Lələtəpədən, Murovdağdan baxdığım kimi.

İllərdi bu dağların da həsrətinin bir əli qarşı tərəfdən yapışıb. O həsrətin üzüləcəyi gün üçün dağlar nələr çəkir, görəsən? - bizim ürəyimiz üzülməkdədi... O yerlərə uğur üstədilər - zirvəyə zirvə olan əsgərlərimizin cəsarəti, qətiyyəti məni bir boy da dikəldəcək. Ürəyim onların könlündən keçənlərə köklənəcək.

Bu anlarda "Lələtəpə fatehləri"ni, "Bayraqtəpə odası"nı dinləmək, "Misri"ləşmək, "Cəngi"ləşmək, "Ruhani"ləşmək istəyirəm...

Məni əsgərlərin əhatəsində görmək istəyən dağlar çağırır... Düşüncələrimi əsgərlərimizin düşüncələriylə durulaşdırmağa çağırır. "Qüdrətdən səngərli-qalalı dağlar" (Aşıq Ələsgər) istəyir ki, yenə əli əl isitsin, həsrətimə dönən günün ərəfəsində könül söhbətinə "qulaq kəsilsin", bu şirinliyə bələnsin, göz açıb-yumunca günlü yağış yağsın, baxdıqlarımıza, gördüklərimizə aydınlıq suyu kimi ağca damlalar ələnsin. Aydınlıq suyunda durulaşanları gözlərimizə, gözlərimizdən könlümüzə köçürək...

Məmləkətimiz bircə əmrin intizarındadı; bircə əmrlə əsgərlərimizə qardaş olan, sirdaş olan dağların gözləri yollardan üzüləcək, göylərin bulud köynəyinin ilmələri süzüləcək, dağlardan üzü o yana aparan yollara izlər düzüləcək. Dağlar da, dağlardan asılı qalan cığırlar da, könlü o cığırların pərvanəsi olan əsgərlər də, o əsgərlərin qətiyyətini bayraq bilənlər də, ... "İrəli!" əmrinə bağır basacaq. Dağların ürəyinə damıb ki, o günə az qalıb...

Dağlar çağırır məni...

Dağlar məni bugünkü gənclərə, yeniyetmələrə, çağırışçılara demək istədiklərini çatdırmaq üçün çağırır; neçə illərin o üzündə qalan döyüşlərdən, döyüşçülərdən, şəhidlərimizdən yenə danışmaq üçün, şəhidlərimizin Vətən sevgisindən söz açmaq üçün çağırır...

Çağırır ki, Yusif Mirzəyevin Ağdərə döyüşlərindən danışsın... Qurban Qurbanovun Vəng döyüşlərindən danışsın... Sahib Aslanovun Kəlbəcər döyüşlərindən danışsın... Koroğlu Rəhimovun Tapqaraqoyunlu döyüşlərindən danışsın... "Qlobus" döyüşlərindən, Xəzəz, Ərgünəş,... döyüşlərindən, Koroğlu daşı döyüşlərindən danışsın... Çox danışıb, çoxlarına danışıb. Nə ki, bəşər var, danışacaq, bəşərilik üçün danışacaq...

Aprel döyüşlərindən danışacaq, bu döyüşlərdə Azərbaycan əsgərinin şücaətindən, xalqın orduya qədərsiz inamından danışacaq...

O səssiz kəlmələrdə bir sızıltı da hiss eləyəcəm...

Dağlar çağırır məni...

"Səndən ötrü can verməyə cümlə qadiriz!" - kəlmələrini son nəfəsəcən təkrarlamağın, məqamında buna əməl eləməyin fəzilətlərini yada salmağa, yaşam fəlsəfəmiz olan bu kəlamları unutmamağı, Vətənə layiq vətəndaş olmağı tövsiyə eləməyə, dağlara qardaş deyənlərə qədərsiz mehri-ülfəti olduğunu bildirməyə çağırır...

Dağlar çağırır məni...

Səngərində sərniməyə, sərin səngərində əsgərlərlə ilahilik nuruna sığınan mətləblərdən söz açmağa, elə orda - avtomatın qundağını sıxanların əhatəsində min illərin tarixini birər-birər yada salmağa çağırır...

Bu çağırışı yaxınlarda olacaqların uvertürası bilirəm...

Dağlar çağırır məni...

Səsinə səs verdiyim dağlara demək istəyirəm ki:

*Ulu dağlar,*
*Can verərik, qoymarıq*
*duman-çiskin bürüyə*
*sinənizdən o yana*
*aparan yolu, dağlar!..*

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır"

Ön xətdə yerləşən bölmələrimizdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədə təşkil olunub və buna görə də döyüş hazırlığı arzulanan səviyyədədir. Onlara ictimai-siyasi hazırlıqlarını artırmaq məqsədilə mütəmadi dərslər keçirilir, ölkədə ordu quruculuğunda həyata keçirilən tədbirlər barədə məlumatlar çatdırılır. İctimai-siyasi hazırlıq dərslərində müasir Azərbaycan dövlətçiliyinin banisi ümummilli lider Heydər Əliyevin irsinin dərindən öyrənilməsinə geniş yer ayrılır. Ulu öndərin müstəqil Azərbaycanın ordu quruculuğu istiqamətində fəaliyyəti, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin respublikamızın müdafiə qüdrətinin gücləndirilməsinə göstərdiyi diqqət və qayğı haqqında ətraflı məlumatlar çatdırılır.




Ön xətdəki bölüyün ictimai-siyasi hazırlıq otağının ideoloji məzmunu dediklərimizi təsdiqləyir. Ulu öndər Heydər Əliyevin "Ordu quruculuğu işində qarşıda duran vəzifələri layiqincə yerinə yetirməliyik. Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir. Bu sözləri həyata keçirmək, buna nail olmaq üçün müstəqilliyimizi həmişə qoruya bilən güclü ordumuz olmalıdır" kəlamı, Prezident, Ali Baş Komandan İlham Əliyevin "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır" sözləri tablolarda əksini tapıb. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin cəbhə bölgələrinə səfərlərini əks etdirən fotoşəkillərdən ibarət ayrıca guşə də adamda maraq oyadır. Guşədə Azərbaycan Ordusu və dövlət atributlarımızın yaranma tarixindən qısa məlumatlar verilib. "Qan yaddaşımız" guşəsində isə erməni təcavüzü - azərbaycanlıların soyqırımı, deportasiyası xronoloji ardıcıllıqla göstərilib. Digər stenddə Azərbaycan hökmdarlarının və sərkərdələrinin fotoşəkilləri yerləşdirilib. Ordu rəhbərliyinin cəbhə bölgələrində əsgər və zabitlərimizlə görüşlərini əks etdirən fotoşəkillərdən ibarət lövhə də yaradılıb. Xidmətdə fərqlənən, bacarıqlı, nümunəvi əsgərlərin fotoşəkillərini əks etdirən şərəf lövhəsi "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" deviziylə təqdim olunub.

Tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini zabit Etibar Namazov Silahlı Qüvvələrimizin tarixindən, iştirakçısı olduğu Qarabağ müharibəsindən, ordumuzun formalaşması və müasirləşməsi dövründən əsgərlərə ətraflı məlumatların çatdırıldığını dedi və ulu öndərin irsinin öyrənilməsinin əhəmiyyətini bildirdi. Böyük döyüş yolu keçən zabit əslən Goranboy rayonunun Borsunlu kəndindəndir. Hərbi təhsil illəri Dağlıq Qarabağ hadisələrinə təsadüf edib. Hərbi təhsilini yarımçıq qoyub və döyüşlərə gedib. Ağdamın Mərzili, Novruzlu istiqamətlərində, Murovdağda gedən döyüşlərdə, Füzulidə "Horadiz" əməliyyatında iştirak edib. Təcrübəli zabitə görə, aprel qələbələrimiz bir daha onu göstərdi ki, orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. "Biz torpaqlarımızı işğaldan azad etmək üçün Ali Baş Komandanın əmrinə hər an hazırıq."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Hərbi yeniliklər, ənənələr




## 40 kilovatlıq lazer topunun sınağı keçirilib

Almaniyanın MVDA şirkəti 40 kilovatlıq lazer topunun sınağını uğurla həyata keçirib. Məlumata görə, sınaq zamanı top bir saniyə ərzində 40 millimetr qalınlığında polad lövhəni və minaatan minini alovlandırıb.

Şirkətin nümayəndəsi Peter Xaylmayer bildirib ki, yaxın gələcəkdə belə oxşar lazer silahlarından döyüş əməliyyatlarında istifadə ediləcək. Şüalı toplar uzaq məsafədə yerləşən obyektləri məhv etməyə qadir olacaq. Bundan başqa silah öz dəqiqliyinə görə zədələnməni minimum həddə çatdırır.

Lazer topunun sınağına 2008-ci ildən başlanılıb. 2011-ci ildə alman mütəxəssisləri silahın üzərində işlər apararaq onu 10 kilovat gücünə gətirib çıxarda biliblər. Silah vasitəsilə 2.3 kilometrlik məsafədə yerləşən obyektlərin izlənməsi həyata keçirilib.

Almaniyadan başqa ABŞ və İsraildə də lazer silahının sınağı həyata keçirilir. İsrail müasir döyüş tanklarını lazer və elektromaqnit topları ilə təchiz etmək niyyətindədir. 2011-ci ildən başlayaraq Amerikanın "Boinq" şirkəti İngiltərənin "BAE System" şirkəti ilə birlikdə hərbi dəniz qüvvələri üçün lazer qurğusunun hazırlanmasına başlayıb. ABŞ-da isə gəmi elektromaqnit topunun (relsotronun) hazırlanması üzrə işlər aparılır.



## MiQ-31 ələkeçiriciləri silahlanmadan çıxarılacaq

Birləşmiş Aviatikinti Korporasiyasının rəhbəri Sergey Korotkovun məlumatına görə, MiQ-31 ələkeçiriciləri modernləşdiriləndən sonra maksimum 2028-ci ilə qədər silahlanmada qalacaq və həmin ildə "MiQ-31"ələkeçirici-qırıcısı fiziki cəhətdən öz mövcudluğunu başa çatdıracaq. Daha sonra o bildirib ki, əbədi olaraq texnikanın modernləşdirilməsi mümkün deyil və nə qədər ki, buna imkanımız var, biz onları yeniləri ilə əvəz etməliyik.

1981-ci ildə silahlanmaya qəbul edilmiş MiQ-31 qırıcıları geniş hündürlük diapazonunda hava hədəflərini ələ keçirmək və onları məhv etmək üçün təyin edilib. Təyyarənin həcmli radiolokasiya kompleksi gözə az görünən qanadlı raketlərlə mübarizə aparmağa qadirdir. Rusiyanın zəif cihazlanmış hava sərhədləri (Arktika) ərazisində MiQ-31qırıcıları hava hücum vasitələrindən müdafiə üçün əsas vasitə sayılır.

Hazırda MiQ-31BM-ə qədər təyyarələrin modernləşdirilməsi üzrə işlər aparılır. Bu özünə tam şəkildə radioelektron göyərtə cihazlarının dəyişilməsini və yeni "Zaslon-M" yeni radiolokasiya kompleksinin quraşdırılmasını daxil edir. Bu kompleks 320 kilometrə qədər uzaqlıqda yerləşən hədəfləri aşkar etməyə, eyni vaxtda bir neçə hədəfi məhv etməyə imkan verəcək. Ələkeçiricinin döyüş dəstinə uzaqlığı 280-300 kilometrə qədər olan RVV-BD raketi daxildir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə 3 aylıq fövqəladə vəziyyət elan edilib



Türkiyədə 3 ay fövqəladə vəziyyət elan edilib.

Bu barədə iyulun 20-də Türkiyə Nazirlər Kabinetinin toplantısından sonra verdiyi açıqlamada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib.

Türkiyə Prezidenti qeyd edib ki, fövqəladə vəziyyət hüquq və azadlıqları məhdudlaşdırmaq üçün deyil, onları qorumaq üçün elan edilib.

Qeyd edək ki, Türkiyə Böyük Millət Məclisində keçiriləcək səsvermədən sonra ölkədə 3 aylıq fövqəladə vəziyyət elan edilməsi barədə qərar qüvvəyə minəcək.

### Yerevanda kütləvi iğtişaşlar: 16 nəfər həbs olunub, 50 nəfər yaralanıb



Yerevanda iyulun 20-də baş verən kütləvi iğtişaşlarla əlaqədar cinayət işi açılıb və təşkilatçılıqda şübhəli bilinən 16 nəfər həbs olunub.

Nümayiş dağıdılandan sonra paytaxtın polis bölməsinə 136 nəfər gətirilib. İyulun 21-də respublikanın təhqiqat komitəsi kütləvi ixtisasların təşkilinə dair cinayət işinə başlayıb.

Xatırladaq ki, silahlı qruplaşma tərəfindən ələ keçirilən Yerevan şəhərinin polis bölməsinin qarşısında keçirilən nümayiş hüquq mühafizə orqanlarının əməkdaşları tərəfindən dağıdılıb. Nəticədə daşların və gözyaşardıcı qazların da istifadə olunduğu iğtişaşlar nəticəsində aralarında 28 polisin də olduğu 50 nəfərdən artıq insan yaralanıb.

### AFR DİN: Almaniya terrorçuların hədəfindədir



Almaniya Daxili İşlər Nazirliyinin nümayəndəsi "DW" nəşrinə müsahibəsində Əfqanıstandan olan 17 yaşlı qaçqının Vürtsburq şəhərində elektrik qatarında sərnişinlərə hücumundan sonra ölkədə terror təhlükəsi ilə bağlı ümumi vəziyyəti şərh edərək deyib: "Almaniyanın təhlükəyə prinsipial münasibəti dəyişməyib". Onun sözlərinə görə, Almaniyanın artıq çoxdan terrorçuların hədəfində olması məlum məsələdir. Üstəlik, kiçik qruplar və ya təkbaşına hərəkət edən terrorçular tərəfindən də hücumlar gözlənilir. Vətəndaşların müdafiəsi üçün görülən tədbirlərin təfərrüatı isə həmişəki kimi açıqlanmayıb.

### Türkiyə Silahlı Qüvvələri İraqın şimalında PKK hədəflərini vurub



Türkiyə Silahlı Qüvvələri İraqın şimalında PKK-ya aid hədəflərə hava zərbələri endirib.

Anadolu Agentliyinin məlumatına görə, əməliyyat nəticəsində 20 terrorçu zərərsizləşdirilib.

### Fransada fövqəladə vəziyyət rejimi daha 6 ay uzadılıb



İyulun 20-də Fransa Senatı ölkə ərazisində fövqəladə vəziyyət rejimin daha 6 ay - 2017-ci ilin yanvarınadək uzatmağı qərara alıb.

Senatdan əvvəl Milli Assambleya da böyük səs çoxluğu ilə fövqəladə vəziyyətin uzadılması təklifini dəstəkləmişdi. Bu gün sənəd yekun səsvermə üçün hər iki palataya göndəriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

# "Qızqalada aşkar olunan faktlar Naxçıvanın qədim tarixinə dair inqilabi yeniliklərə yol aça bilər"



*Qala-şəhərlərdən biri hesab edilən muxtar respublikanın Şərur rayonunun ərazisində yerləşən Qızqala yaşayış yerində bu ilin birinci yarısında aparılan arxeoloji tədqiqatlar zamanı burada qala divarına birləşik binaların da mövcud olduğu aşkarlanıb. İndiyədək Yaxın Şərq və Cənubi Qafqazda miladdan əvvəl III minilliyə aid qala divarları aşkar edilmədiyindən bu fenomenal hadisə regionun tarixində inqilab kimi dəyərləndirilə bilər.*

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Vəli Baxşəliyev AZƏRTAC-a müsahibəsində Qızqalada aparılan arxeoloji tədqiqatlarda əldə edilən nəticələr barədə danışarkən belə deyib.

Vəli Baxşəliyev qeyd edib ki, Qızqalada aparılan araşdırmalar zamanı aşkar olunan tikinti qalıqları qala divarına birləşik, düzgün olmayan dördkünc formalı yaşayış binalarından istifadə olunduğunu göstərir. Bu otağın yaxınlığında tuf daşından hazırlanmış dabana daşının aşkar olunması vahid ox ətrafında dönən qapıların olduğunu deməyə əsas verir. Lakin burada tikintilər yaxşı saxlanmadığından evlərin formasını yalnız döşəmə qalıqlarına əsasən müəyyən etmək mümkündür. Döşəmə qalıqları dördkünc və dairəvi evlərdən istifadə olunduğunu göstərir. Şübhəsiz ki, dairəvi evlər yardımçı məqsəd üçün istifadə edilib. Bu yaşayış binalarının forması birinci sahədən aşkar edilən tikinti qalıqları ilə daha yaxşı təmsil olunub. Bu sahədə evlərdən birinin içərisindəki ocaqdan götürülən kömür qalıqlarının analizi miladdan əvvəl 1939-1748-ci illəri göstərib. Həmin evin bünövrəsi irihəcmli daşlardan inşa edilib. Onun yalnız iki divarı - qərb və cənub divarları aşkar olunub. Bu sahədə aşkar olunan ikinci otaq tam dördkünc formalıdır. Onun içərisindəki ocaqdan götürülən kömürün analizi e.ə. II minilliyin ortalarını, daha doğrusu, e.ə. 1451-ci ili göstərib.

Qızqala yaşayış yeri və onun ətrafındakı kurqanlarda aparılan araşdırmaların onların vahid bir kompleks təşkil



etdiyini göstərdiyini bildirən AMEA-nın müxbir üzvü deyib ki, araşdırmalar zamanı Orta Tunc dövrünə aid 2.5-3 metr qalınlığında mədəni təbəqənin varlığı müəyyən olunub. Bu, Naxçıvanda I Kültəpə, II Kültəpə və Qızılburundan sonra dördüncü mühüm abidədir: "Yaşayış yeri boyalı qablarla fərqlənən Orta Tunc dövrü mədəniyyətinin Naxçıvanla bağlı olduğunu bir daha təsdiq edir. Qızqala yaşayış yerində, həmçinin muxtar respublikanın ərazisində yerləşən Bəzəkli, Qazançıqala, Qurddağ, Göynük qalası və digər abidələrdə müdafiə divarlarının aşkar olunması Orta Tunc dövründə Naxçıvanda böyük hərbi potensiala malik tayfaların yerləşdiyini təsdiq edir. Bu tayfaların bir qismi oturaq, bir qismi isə yarım köçmə maldarlıqla məşğul olmuşdur. Qızqala ətrafındakı kurqanlardan skelet qalıqlarının aşkar olunması isə boyalı keramika ilə seçilən Orta Tunc dövrü mədəniyyətinin mənsubiyyəti və onun yaradıcıları haqqında yeni fikirlər deməyə imkan verəcək".

Vəli Baxşəliyev bu il Naxçıvandakı abidələrin tədqiqi zamanı digər yeni faktların da aşkar olunduğunu deyib. Onun sözlərinə görə, insan skeletlərinin dişlərindən götürülən izotopların analizi zamanı müəyyən edilib ki, Arpaçay vadisində məskunlaşan Orta Tunc dövrü tayfaların məskəni Naxçıvan olub. Onlar yaz və yayda Arpaçay vadisi ilə indiki Ermənistan ərazisinə doğru hərəkət edərək yaylaqlardan istifadə edib və geri dönərək bu vadidə - Qızqala yaşayış yerində yaşayıblar.

# Matroslar üçün konsert

*Şəxsi heyətin normal istirahəti əsgərlərin xidməti üçün şərait yaradır. Ona görə istirahət günlərində döyüşçülərin mənalı dincəlməsi üçün mədəni-kütləvi tədbirlərin təşkili planlı surətdə həyata keçirilir.*



Bu yaxınlarda Hərbi Dəniz Qüvvələrinə məxsus hərbi hissənin həyətində sanki bir bayram əhval-ruhiyyəsi vardı, döyüş gəmilərilə əhatə edilmiş meydança bayraqlarla bəzədilmişdi. Matroslar səliqə ilə meydançanın kənarı boyunca kürsülər düzərək əyləşmişdilər.

Zabit və matrosların görüşünə Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının bədii kollektivi və əməkdar artist müğənni Elçin Hüseynov gəlmişdi. Onların iştirakı ilə keçirilən tədbir şəxsi heyətin ürəyincə oldu.

Əməkdar artist Elçin Hüseynov da repertuarına saldığı ən yaxşı mahnıları Vətənin müdafiəçiləri qarşısında şövqlə ifa etdi və döyüşçülərin alqışlarını qazandı. Konsertdə gənc müğənnilərin ifasında səsləndirilən milli vətənpərvərlik mahnı və marşları da hərbçilərin ürəyincə oldu.

Mahir klarnet ifaçısı Seymur Kərimovun səsləndirdiyi şən melodiya və təranələr matrosların zövqünü oxşadı. Onlar bir-bir, iki-bir ortaya çıxdılar, qol qaldırıb rəqs etdilər.

Silahlı Qüvvələrdə kütləvi iş təkcə şəxsi heyətin asudə vaxtının səmərəli təşkilini nəzərdə tutmur, eyni zamanda mədəniyyət və incəsənət nümunələri vasitəsilə döyüşçülərdə yüksək mənəvi-əxlaqi keyfiyyətlərin aşılanması, Vətənə, xalqın qəhrəmanlıq keçmişinə hörmət və məhəbbət aşılamaq, bununla onları hərbi tapşırıqların uğurla icra edilməsinə sövq etmək məqsədi güdür. Bu baxımdan Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının gənc müğənnilərinin ifasında vətənpərvərlik ruhunda səsləndirilmiş mahnı və marşlar döyüşçülərdə xoş ovqat yaratdı.

Tədbirin sonunda mayor Rüfət Yusifov Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının bədii kollektivinə və əməkdar artist Elçin Hüseynova şəxsi heyət adından təşəkkürünü bildirdi və onlara Hərbi Dəniz Qüvvələri komandanı adından fəxri fərman təqdim etdi.

**"Azərbaycan Ordusu"**

## "Erməni mətbuatının Azərbaycan Ordusunun atəşkəs rejimini pozması barədə yaydığı məlumat yalandır"

Ermənistan hakimiyyəti hazırda ölkədə baş verən iğtişaşlardan əhalisinin və beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq məqsədilə cəbhə xəttində Azərbaycan silahlı bölmələrinin guya atəşkəs rejimini pozaraq mülki əhaliyə atəş açması barədə növbəti dəfə həqiqətə uyğun olmayan məlumat yayıb. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin açıqlamasında məlumat verilir.

Müdafiə Nazirliyi bir daha bildirir ki, Azərbaycan Silahlı Qüvvələri atəşkəs rejiminə tam riayət edir, beynəlxalq hüququn prinsiplərinə və humanitar normalara uyğun olaraq heç bir halda mülki əhali və obyektləri hədəf seçmir.

Bu kimi məlumatların yayılmasında Ermənistan hakimiyyətinin məqsədi hazırkı durumda cəbhəboyu zonada vəziyyəti gərginləşdirmək və planlaşdırdıqları təxribatlara qabaqcadan haqq qazandırmaqdır.

**AZƏRTAC**

Əsgər Məmmədov Fəhmin Rəsul oğluna 2015-ci ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 432
Nüsxə 4650